**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**«Təsdiq edirəm»**
**filologiya fakültəsinin dekanı**
**dos. M.T.Vəliyev**
**14 dekabr 2015**

# Ümumi dilçilik kafedrasının elmi-tədqiqat işlərinin yerinə yetirilməsi haqqında

# H E S A B A T I

**BAKI – 2015**

## 1. GİRİŞ.

Ümumi dilçilik kafedrasının müəllimləri dərs yükü ilə yanaşı hər il elmi-tədqiqat işlərini yerinə yetirirlər. Həmin elmi işlər dilçiliyin aktual problemləri üzrə üçillik plan şəklində müəllimlər arasında bölünmüşdür. Bölüşdürülmə aşağıdakı strukturu əhatə edir.

## 2. STRUKTUR VƏ ŞTAT CƏDVƏLİ:

1. Cəfərov Nizami Qulu oğlu, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü (0,5 ştat - əvəzçi) – 1959-cu ildə anadan olmuşdur
2. Rəcəbli Əbülfəz Əjdər oğlu, filologiya elmləri doktoru, professor – 1936-cı ildə anadan olmuşdur
3. Məmmədov Məhəmməd Tofiq oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent – 1957-ci ildə anadan olmuşdur
4. Qasımova Şəkər Vəli qızı, filologiya üzrə fəlsəfə doktoru, dosent – 1935-ci ildə anadan olmuşdur
5. Muradov Cavanşir Xankişi oğlu, filologiya üzrə fəlsəfə doktoru, dosent (0,5 ştat) – 1966-cı ildə anadan omuşdur
6. Mehdiyev Firuz Nadir oğlu, baş müəllim – 1948-ci ildə anadan olmuşdur
7. Həmzəyeva Elmira Hüseynağa qızı, filologiya üzrə fəlsəfə doktoru, baş müəllim (0,5 ştat) – 1959-cu ildə anadan olmuşdur
8. Məmmədova Svetlana Əliyulla qızı, baş müəllim – 1939-cu ildə anadan olmuşdur
9. Əliyeva Cəmilə Musa qızı, baş müəllim – 1946-cı ildə anadan olmuşdur

Kafedranın böyük laborantı Qafarova Xeyriyyə Əlihüseyn qızı təqaüdə çıxdığına görə 2015-ci il sentyabrın 1-dən öz ərizəsi ilə işdən azad edilmişdir.

## 3. KAFEDRALARDA APARILAN ELMİ-TƏDQİQAT İŞLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ, ADI, SAYI, QISA ANNOTASİYASI, YERİNƏ YETİRİLMƏSİ.

**2015-ci ildə Ümumi dilçilik kafedrasının əməkdaşları «Dillərin təsnifi» adlı ümumi üçillik mövzunun 9 işi – üzərində çalışıblar. İstiqamət: Dil nəzəriyyəsi. Problem: Dilin nəzəri problemləri. Planlaşdırılmış mövzulardan aşağıdakılar yerinə yetirilmişdir:**

İş: «Müqayisəli dilçilik»

İcraçı: AMEA-nın m.ü., prof. N.Q.Cəfərov

Mərhələ I: «Dilə müqayisəli baxış»

Müqayisəli-tarixi dilçilik XIX əsrin əvvəllərində bir neçə dilçinin bu sahədəki müstəqil tədqiqatları ilə yaranıb. Dilə müqayisəli baxışın tarixi qədimdir. Qədim hind dilçiliyində müqəddəs kitabələrin dili olan klassik sanskrit dili ilə canlı dilin müqayisəsi cəhdləri olub. M.Kaşğarlının "Divani lüğat-it türk" əsərində türk dilləri müqayisəli şəkildə öyrənilib. Dilə müqayisəli baxışın yaranmasında avropalılarn sanskrit dili ilə tanışlığı mühüm rol oynayıb. Dilə tarixi baxışın yaranması isə sosiologiya elminin təsiri ilə bağlıdır. Cəmiyyətin inkişafı fikri dilin də inkişafı fikrini yaradıb müqayisəli-tarixi dilçilik tarixi zərurətdən yaranıb. Elmi işdə də müqayisəli-tarixi dilçiliyin yaranmasını şərtləndirən amillər öyrənilir.

İş: «Müqayisəli-tarixi dilçilik»

İcraçı: prof. Ə.Ə.Rəcəbli

Mərhələ I: "Müqayisəli-tarixi və tipoloji dilçilik"

Müqayisəli-tarixi dilçiliyin ilk mərhələsi 1816-1870-ci illəri əhatə edir. Bu mərhələ iki yarımdövrə bölünür: 1. Bopp-Rask yarımdövrü (1816-1850) və 2. Şlayxer-Ştayntal yarımdövrü (1850-1870). Birinci yarımdövr müqayisəli-tarixi dilçiliyin yaranması, ikinci yarımdövr isə formalaşması dövrüdür.

Dillərin ilk tipoloji təsnifi 1808-ci ildə F.Şlegel, ondan sonra 1818-ci ildə A.V.Şlegel tərəfindən verilsə də, tipoloji dilçiliyin bir sahə kimi yaranıb-formalaşması V.fon Humboldtun adı ilə (1822) bağlıdır.

İş: «Tipoloji dilçilik»

Mərhələ I: "Linqvistik tipologiya"

İcraçı: dosent M.T.Məmmədov

Dillərin tipoloji təsnifinin əsasında müxtəlif dillərin strukturunda allomorfizm və izomorfizmin müəyyənləşdirilməsi, tipoloji cəhətdən relevant olan əlamətlə\r əsasında onların təsnif edilməsi dayanır. Ənənəvi tiploji təsniflər dillərin morfoloji quruluşunadkı, xüsusən də müxtəlif dillərdə sözün morfoloji quruluşundakı keyfiyyət

fərqləri dayanır. Sonralar tipoloji dilçilikdə müxtəlif sistemli dillərdəki cümlə strukturları təsnif prinsipi kimi qəbul edilmiş, sintaktik tipologiyalar formalaşmışdır. Kontensiv tipologiya sintaktik tipologiyanın davamı kimi yaranır, məzmun planının universal vahidlərinin dillərin morfosintaksisində necə ifadə olunması burada əsas götürülür. Elmi işdə dillərin tipoloji təsnifi bir bütöv halında götürülür, tipoloji dilçiliyin inkişaf yolları müəyyənləşdirilir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ I: «Tipoloji dilçiliyin inkişafı»

İcraçı: dosent Ş.V.Qasımova

Tipologiya fənni üzrə kafedranın elmi iş planına daxil edilən və 2015-ci ildə mənə ayrılan "Tipoloji dilçiliyin inkişafı" mövzusu hazırda öz aktuallığı ilə dünya dilçiliyində özünün tam həllini tapmayan problem məsələlərdən biridir.

Alman dilçisi F.Şlegel bu problem məsələyə dillərin təsnifinə morfoloji cəhətdən yanaşmış, dilçilik tarixində tipoloji təsnifat sahəsində ilk olaraq təşəbbüs göstərmişdir. Tipoloji təsnifi ümumi şəkildə ilk dəfə irəli sürən isə böyük alman alimi V.fon Humboldt olmuşdur.

1908-ci ildən başlayan tipoloji tədqiqatlar F.Şlegelin, H.Şteyntalın, M.Millerin, F.Boppun, S.Kuznetsovun, F.Finkin, E.Sepirin, İ.Meşşaninovun, N.Y.Marrın, C.Qrinberqin, A.Şleyxerin, H.Şteyntalın, M.İ.Zurinskayanın və s. adları ilə bağlıdır.

XIX əsrin əvvəllərindən başlayaraq bu sahədə yeni tədqiqatlar özünü göstərir.

1921-ci ildən Amerika dilçisi E.Sepir yeni təsnifat irəli sürür. Bu təsnifatda E.Sepir dilin derivasiya dərəcəsinə əsaslanır və bu tədqiqat üsulu əvvəlki tədqiqatlardan dili daha böyük dəqiqliklə səciyyələndirməyə imkan verir.

Müasir dövrdə tipoloji tədqiqatlara maraq daha da artmış, tipoloqlar dilin quruluşuna və onun iyerarxiyalarına böyük maraq göstərir. Tədqiqatçılar dil strukturunun daha ümumi cəhətlərini meydana çıxarmaq üçün universalilər tipologiyasının yaradılmasına səy göstərir.

Bir çox dilçilər tərəfindən dil tipologiyası üçün kvantikativ (kəmiyyət) meyarlardan istifadə etmək ön plana çəkilir, istifadə etmək ön plana çəkilir, istifadə sahələri tədqiq

edilir. Bu sahə üzrə tədqiqatlar öz həllini tam tapmadığı üçün tədqiqat işləri hazırda davam etdirilir.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ I: «Pilləli tipologiya»

İcraçı: dosent C.X.Muradov

Pilləli tipologiya dillərin təsnifini bir əlamə əsasında deyil, bir neçə əlamət əsasında aparır. Bu baxımdan daha kamil bir təsnif kimi çıxış edir. Pilləli tipologiyanın aqqlütinativ dillərin təsnifini hansı əlamətlər əsasında aparması, iltisaqi dillərin xüsusiyyətlərin aşkarlamaq gözlənilən nəticələr hesab etmək olar.

İş: «Müqayisəli-tipoloji dilçilik»

Mərhələ I: «Dil tipləri»

İcraçı: baş müəllim F.N.Mehdiyev

Müxtəlif dillərdə yazılmış çoxsaylı mətnlərin tanışlığı ilə məlum oldu ki, qohum olan və yaxud heç bir qohumluq əlaqəsi olmayan dillərdə struktur yaxınlıq olduğunu görürük. Bunun əksinə olaraq mənşəcə qohum olan dillərin strukturunda xeyli ciddi fərqlərin mövcudluğunun şahidi oluruq. Bütün bu oxşarlıq və fərqlərin araşdırılması dilçilikdə yeni bir sahənin – dilçilik tipologiyasının yaranmasına səbəb oldu.

Linqvistik tipologiyaya aid tədqiqatların tarixindən məlum olur ki, müxtəlif dövrlərdə morfoloji təsnifatla bağlı araşdırmalarda dil tiplərinin bölgüsü müxtəlif olmuşdur. Hətta iyirmidən çox dil tipinin müəyyən edilməsi məlumdur. Təbii ki, ən kiçicik fərqləri nəzərə almaqla bu sayı daha da çoxaltmaq mümkündür. A.Şlegel, F.Şlegelin təsnifatı və sonradan V.f.Humboldtun bölgüsü bir sıra məsələlərə aydınlıq gətirdi. Yəni təsnifatda ən xarakterik məqamlar nəzərə alındı. Bu prinsiplə də Humboldt ümumiləşdirmə aparmaq dilləri əsasən dörd tipə böldü.

1. Amorf dillər
2. İltisaqi dillər
3. Flektiv dillər
4. İnkoporlaşan dillər

İş: “Müqayisəli-tarixi dilçilik

Mərhələ I: “Müqayisəli-tarixi dilçiliyin yaranması”

İcraçı: f.ü.f.d., baş müəllim E.H.Həmzəyeva

Müqayisəli-tarixi dilçilik (komporativistika) dilçiliyin sahələrindən olub bir tarixi-genetyik, yəni bir ulu dildən törənən dillərin tədqiqi ilə məşğul olur. Elmi-tədqiqat işində müqayisəli-tarixi dilçiliyin yaranmasında sanskritin rolundan müqayisəli-tarixi metodun yaranmasında xidmətləri olan dilçilərin – Y.Qrimm, F.Bopp, R.Rask, Y.Bredstorf və A.Vostokovun xidmətlərindən danışılır.

İş: “Müqayisəli-tarixi dilçilik”

Mərhələ I: “Roman dilləri”

İcraçı: baş müəllim S.Ə.Məmmədova

Elmi işin mövzusu “Roman dilləri”dir. Roman dilləri dedikdə əsasən latın dilindən formalaşan, bu dildən törəyən və bu günə kimi lüğət tərkibini, sintaksis və morfologiyasını saxlamaqda davm edən dillər başa düşülür. Bu dildən sonralar fransız, ispan, italyan, portuqal, rumın dilləri törənib və bir zaman keçmiş onların özünə məxsus qrammatik, fonetik, leksik və başqa xüsusiyyətləri yaranıb.

İş: Müqayisəli-tarixi dilçilik

Mərhələ I: “Roman dillərinin formalaşması”

İcraçı: baş müəllim C.M.Əliyeva

Roman dillərinin formalaşması Roman dilləri dedikdə xalq latın dilindən törəyən və hal-hazırda da öz lüğət tərkibində, sintaksisində və morfologiyasında latın cizgilərini saxlamaqda davam edən dillər nəzərdə tutulur. Tədqiqat əsasən fransız, ispan, portuqal, italyan və bir sıra dialektlər arasında aparılır. Bu dillərin formalaşması uzun bir dövr keçmiş, onlara müxtəlif səpgidən yanaşmışlar, qrammatik, fonetik, leksik və s.

## 4. DƏRC OLUNMUŞ ELMİ İŞLƏRİN XARAKTERİSTİKASI.

### Kitablar:

### AMEA-nın m.ü., prof. N.Q.Cəfərov:

1. Gülağa Tənhanın poeziyası. Bakı: Çaşıoğlu, 2015, 92 s.

**Dosent M.T.Məmmədov:**

1.Linqvistik tipologiya.(Metodik vəsait).Bakı,"Bakı Universiteti" nəşriyyatı,2015,1,5 ç.v.

**Məqalələr:**

**Dosent M.T.Məmmədov:**

1. Azərbaycan dilində söz kökü (strukturu və morfonoloji xüsusiyyətləri). / "Kitabi-Dədə Qorqud" və türk dünyası. Bakı, dekabr, 2015

**Dosent Ş.V.Qasımova:**

1. Əli Tudə şeirində əvəzlik üslubi vasitə kimi. // "Dil və Ədəbiyyat", 2015, № 2(94)

**Dosent C.X.Muradov:**

1. Kompüter terminlərinin əmələ gəlmə yolları. // "Dil və Ədəbiyyat", 2015, № 4(96)

**Baş müəllim F.N.Mehdiyev:**

1. Morfologiya və onun dil sistemində yeri. // "Dil və Ədəbiyyat", № 1 (93), 2015

**F.ü.f.d., baş müəllim E.H.Həmzəyeva:**

1. Müqayisəli-tarixi dilçiliyin yarnmasında sanskrit dilinin rolu. // "Dil və Ədəbiyyat", 2015, № 4(96)

**Baş müəllim S.Ə.Məmmədova:**

1.Latın dilində söz önləri. // "Dil və Ədəbiyyat", № 1 (93), 2015

**Baş müəllim C.M.Əliyeva:**

2. Roman dillərinin tarixi inkişafı və struktur ümumiliyi. // "Dil və Ədəbiyyat", № 4 (96), 2015

**5. QRANTLAR ƏSASINDA YERİNƏ YETİRİLƏN ELMİ-TƏDQİQAT İŞLƏRİ:**

**6. AMEA İLƏ ELMİ ƏLAQƏLƏR**

Kafedra müəllimləri AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu ilə mütəmaddi əməkdaşlıq edirlər. Ümumən AMEA-nın respublika səviyyəli tədbirlərinə dəvət olunurlar. Kafedranın professoru, AMEA-nın müxbir üzvü Nizami Qulu oğlu Cəfərov akademik Bəkir Nəbiyevin yubileyi ilə bağlı AMEA MEK-da keçirilmiş tədbirdə iştirak etmişdir. Kafedranın bütün müəllimləri Nəsimi adına Dilçilik İnstitutunun elmi

məcmuəsində və keçirdiyi konfranslarında məruzələrlə çıxış edir, məqalələr çap etdirirlər.

**7. XARİCİ DÖVLƏTLƏRİN TƏHSİL VƏ ELMİ MÜƏSSİSƏLƏRİ İLƏ ƏLAQƏLƏR.**

7.1.Elmi-texniki əməkdaşlıq – yoxdur;

7.2. Beynəlxalq konfranslarda, konqreslərdə və simpoziumlarda iştirak:

7.3 Beynəlxalq proqramlar üzrə təkliflər – yoxdur;

7.4. Xaricdə çap edilmiş məqalələr:

**F.ü.f.d., b/m E.H.Həmzəyeva:**

1. E.H.Həmzəyeva. Eski abidelere bir bakış. // Route Educational and Sosial Science Journal. Volume 2(1), January 2015, s.337-346

**8. ELMİ-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİNİN TƏTBİQİ**

8.1. Dövlət və özəl strukturlarda tətbiq olunmuş elmi nəticələr:

Kafedranın müəllimlərinin yazıb çap etirdiyi dərslik, dərs vəsaiti və proqramlardan başqa ali məktəblərdə istifadə olunur. O cümlədən kafedranın dosenti M.T.Məmmədovun 2015-ci ildə nəşr etdirdiyi “Linqvistik tipologiya” adlı metodik vəsait digər dövlət və özəl ali məktəblərin müəllimləri yaralanırlar.

8.2. Təhsildə elmi-tədqiqat işlərinin nəticələrinin və informasiya texnologiyasının tətbiqi. Elmi-tədqiqat işlərinin səmərəliliyi:

Elmi-tədqiqat işlərinin nəticələrindən isə magistratura bölməsində mühazirə mətnləri və dərs vəsaitləri kimi istifadə olunur.

8.3. İstehsalatda tətbiq üçün hazır olan texnologiyalar haqqında məlumat – yoxdur.

**9. PATENT VƏ İNFORMASİYA İŞLƏRİ –** yoxdur.

**10. DÖVLƏT PROQRAMLARININ İCRASI:**

10.1 «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»nın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı»:

Bakı Dövlət Universitetində Azərbaycan dilinin tətbiqinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramına uyğun olaraq tədris edilən “Azərbaycan dili və nitq mədəniyyəti” fənninin öyrənilməsində kafedranın müəllimlərinin müəyyən rolu vardır. Belə ki,

kafedrada çalışan baş müəllim S.Ə.Məmmədova, baş müəllim C.M.Əliyeva və baş müəllim E.H.Həmzəyeva bu fənnin tədrisi ilə məşğul olurlar.

10.2 «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı».

10.3 «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»

**11. FAKÜLTƏDƏ KEÇİRİLMİŞ ELMİ KONFRANSLARIN, SEMİNARLARIN, SİMPOZİUMLARIN XARAKTERİSTİKASI**

2015-ci ildə filologiya fakültəsində bir neçə konfrans keçirilmişdir. Belə ri, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı keçirilmiş respublika konfansında, "Kitabi-Dədə Qorqud"un nəşr edildiyinin 200 illiyi münasibətilə beynəlxalq konfransda, professor Pənah Xəlilovin 90 illiyi, xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyi ilə bağlı konfransda və professor Yusif Seyidovun anım günü münasibətilə keçirilmiş iclasda kafedranın müəllimləri məruzəçi olmuşlar.

**12. FAKÜLTƏDƏ ELMİ VƏ ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASI**

Kafedra elmi və elmi-pedaqoji kadrların hazırlanmasında fəal iştirak edir. 1 nəfər əyani: Əlimirzəyeva Afaq Rüstəm qızı "Söz birləşmələri (Tabelilik və tabesizlik əlaqəli söz birləşmələri problemi)"; 2 nəfər qiyabi: Əliyeva Sevil Rza qızı "Müasir dilçilik cərəyanları", Qəniyeva Xanımqız Süleyman qızı "Dilin yarusları və dilçiliyin şöbələri" mövzularında müdafiə edib magistr dərəcəsinə layiq görülmüşlər

2015-cildə kafedranın professoru Ə.Ə.Rəcəblinin 2 dissertantı – Xanbabayeva Gülzar Qənbərəli qızı "Azərbaycan və ingilis dillərində nitq və eşitmə feilləri" və Hümbətova Aytən Şakir qızı "Bədii tərcümədə adekvatlıq və yayınmalar" mövzusunda filologiya üzrə fəlsəfə doktoru dissertasiyaları müdafiə etmişlər. Hesabat ili ərzində kafedranın dosenti Məmmədov Məhəmməd Tofiq oğlu Gülnarə Rəhim qızı Sadıqovanın yazdığı "Dini mənbələrdə frazeoloji birləşmələr (müxtəlif sistemli dillər əsasında)" adlı filologiya üzrə elmlər doktoru dissertasiyasına əlavə rəy vermişdir.

**13. DİSSERTASİYA MÜDAFİƏSİ VƏ İXTİSASLAŞDIRILMIŞ ŞURALARIN FƏALİYYƏTİ**

Kafedranın professoru Rəcəbli Ə.Ə. BDU-nun filologiya fakültəsində fəaliyyət göstərən D.02.181 Dissertasiya Şurasının üzvüdür. Həmçinin AMEA-nın m.ü. N.Q.Cəfərov, dos. M.T.Məmmədov və fakültənin təlim-tərbiyə işləri üzrə dekan müavini dos. C.X.Muradov fakültə Elmi Şurasının üzvləridir. Dos. C.X.Muradov D.02.181 Dissertasiya Şurasının nəzdindəki Elmi Seminarın üzvüdür.

**14. TƏLƏBƏLƏRİN VƏ GƏNC TƏDQİQATÇILARIN (MAGİSTRLƏRİN) ELMİ-TƏDQİQAT İŞLƏRİ (KONFRANSDA İŞTİRAKI)**

Kafedranın magistr və bakalavr pillələrində oxuyan tələbələr vaxtaşırı olaraq «Azərbaycan filologiyasının aktual problemləri» adlı məcmuədə öz elmi məqalələrini çap etdirirlər. Eyni zamanda onların çıxışları, məruzə və tezisləri fakültədə buraxılan digər elmi nəşrlərdə də çap olunur. Kafedra üzrə müdafiə edən və təhsillərinə davam edən magistrantların oxuyan tələbələrin aşağıda qeyd olunan məqalələri çap edilmişdir:

1. Əlimirzəyeva A. Söz birləşmələri dil və nitq vahidi kimi. / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 7-8 may 2015-ci il, XVIII kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2015, s.424-427
2. Əlimirzəyeva A. Tabesizlik və tabelilik əlaqəli söz birləşmələri məsələsi. / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 7-8 may 2015-ci il, XVIII kitab. B., "Bakı Universiteti" Nəşriyyatı, 2015, s.427-429

**15. 2014-cü İLDƏ HANSI AVADANLIQLARININ ALINMASINA EHTİYAC DUYULUR (ADI, ALINACAQ AVADANLIQLARININ SAYI, TƏXMİNİ QİYMƏTİ, manatla):**

Kafedrada tədrisin və elmi–tədqiqat işlərinin yüksək səviyyədə keçirilməsini təşkil etmək üçün kafedranın aşağıdakı texniki avadanlıqla təhcizatına ehtiyac vardır: 2 ədə şkaf, 2 müəllim stolu, 1 kompüter stolu və 1 jalyüz.

## 16. ƏSAS NƏTİCƏLƏR VƏ TƏKLİFLƏR

Kafedra əməkdaşlarının 1 illi elmi-pedaqoji fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Gələcəkdə kafedra nəzdində elmi-ixtisas laboratoriyasının yaradılması kafedranın elmi əlaqələrinin genişlənməsinə müsbət təsir göstərə bilər. "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin BDU-nun bütün fakültələrində, həm də filologiya fakültəsində tədrisi nəzərə alaraq "Nitq mədəniyyətinin nəzəriyyəsi" adlı bir kursun kafedranın tədris planına salınması məqsədəuyğun olardı.

Ümumi dilçilik kafedrasının
müdiri əvəzi: dos. M.T.Vəliyev